# Azərbaycan regionda iqtisadi güc və siyasi söz sahibidir

Azərbaycanın müstəqilliyini bərpa etməsi həm qonşu, həm də dünya dövlətləri ilə iqtisadi, o cümlədən xarici ticarət əlaqələrini qurmağa imkan verdi. İndi Azərbaycan 180 ölkə ilə ticarət əlaqələri olan, qlobal layihələrdə fəal iştirak edən, beynəlxalq dəhlizlərdə əsas qovşaq rolu oynayan və nəhayət, regionun əsas iqtisadi güc və siyasi söz sahibi sayılan Zəfər qürurlu bir dövlətdir.

Məlum olduğu kimi, müstəqil Azərbaycan Konstitusiyasının qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qazanılan Zəfərin 5-ci ildönümü ilə əlaqədar Prezident İlham Əliyevin sərəncamı ilə 2025-ci il ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilib. Sərəncam suverenlik dəyərlərinin təbliği və möhkəmləndirilməsi, iqtisadi müstəqilliyin əsasları, suverenliyin məzmunu baxımından xüsusi əhəmiyyət kəsb edir. Ona görə də Azərbaycan iqtisadiyyatının müstəqillik illərində inkişaf faizinə qısa nəzər salaq. Həmin dövr ölkədə qeyri-neft sektoru, o cümlədən aqrar sahə inkişaf etmiş, xarici sərmayələrin xüsusən qeyri-neft sektoruna cəlb edilməsi üçün bir çox təşviq tədbirləri həyata keçirilmişdir. Ənənəvi sənaye mərkəzlərində, eləcə də yeni yaradılan sənaye zonalarında yeni müəssisələr açılmış, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda yaşayış kompleksləri və infrastrukturla birlikdə istehsal müəssisələri yaradılmışdır. Zəfərdən sonra ötən 4 ildə Azərbaycanın dünya ölkələri ilə iqtisadi əlaqələri, dövriyyəsi daha da böyümüşdür. Bu gün Azərbaycanın iş adamları həm də xarici ölkələrdə fəaliyyət göstərirlər. Eyni zamanda əcnəbi investorlar da Azərbaycan iqtisadiyyatına yatırım qoymaqda davam edirlər.

Bu da suverenliyin bariz nümunəsidir ki, indi Azərbaycan sərbəst iqtisadi siyasət həyata keçirir və ildən-ilə yüksək göstəricilər əldə edir. Məsələn, təkcə ötən il qeyri-neft sektorunda 6, o cümlədən qeyri-neft sənayesində 7 faizdən çox artım qeydə alınıb. Bu göstərici Azərbaycan iqtisadiyyatının dayanıqlığını və diversifikasiyasını nümayiş etdirir. İqtisadi inkişaf həm də uzunmüddətli islahatlar, şəffaflıq və inhisarçılığa qarşı mübarizə nəticəsində mümkün olub. Beynəlxalq reytinq agentliklərinin uğurlarımızı müsbət qiymətləndirmələri bu inkişafın təsdiqidir. Valyuta ehtiyatlarımızın 72 milyard dollara çatması da ölkəmizin maliyyə dayanıqlığını və iqtisadi müstəqilliyini artıran mühüm göstəricidir. Xarici borcun ümumi daxili məhsulun cəmi 7,2 faizini təşkil etməsi isə Azərbaycanın maliyyə sahəsində dünya liderləri sırasına daxil olduğunu göstərir.

Prezident İlham Əliyev beynəlxalq aləmdə cərəyan edən prosesləri dərindən anlayan, strateji düşüncəyə malik bir liderdir. Onun irəli sürdüyü qlobal təşəbbüs və proqramlar Azərbaycanı beynəlxalq münasibətlər sistemində mühüm aktorlardan birinə çevirib. Dövlət başçısı təkcə regional deyil, həm də qlobal problemlərin həlli üçün səmərəli təkliflərlə çıxış edir. Bu, xarici ticarət dövriyyəsinin, idxal-ixrac əməliyyatlarının və iqtisadi əlaqələrin inkişafının daim diqqətdə saxlanılması ilə müşaiyət olunur, üstəlik ixrac strukturunda qeyri-neft, o cümlədən ərzaq və kənd təsərrüfatı məhsullarının çəkisi artır, onların rəqabətqabiliyyətliyi yüksəlir. Bu səbəbdən dünya bazarlarına çıxarılan məhsullarımızın çeşidi və həcmi ilbəil artır. Prezident İlham Əliyev çıxışlarının birində bu əhəmiyyətli məqama toxunaraq demişdir: "İndi bizim yerli məhsullarımız heç bir xarici məhsuldan geri qalmır, həm keyfiyyəti, həm onların müasir qablaşdırılması, xarici görünüşü, dadı baxımından. Azərbaycanda indi kənd təsərrüfatı emalı sənayesində elə gözəl məhsullar istehsal olunur ki, Avropa ölkələrinə də, Amerikaya da ixrac edilir".

Ötən il ixrac coğrafiyasının genişləndirilməsi, sərmayə əməkdaşlığının təşviqi, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və yenidənqurma proseslərinə əcnəbi şirkətlərin cəlb olunması, eləcə də iqtisadiyyatın müxtəlif sahələrində xarici tərəfdaşlarla əməkdaşlığın gücləndirilməsi üçün ikitərəfli formatda çoxsaylı tədbirlər keçirilmişdir. Bir çox ölkələr, o cümlədən Mərkəzi Asiya və Körfəz ölkələri ilə əməkdaşlığın inkişafı davam etmişdir. İl ərzində Birləşmiş Ərəb Əmirlikləri ilə biznes forum keçirilmiş, Özbəkistanla enerji sahəsində sazişlər imzalanmış və Azərbaycan-Səudiyyə Ərəbistanı İşgüzar Şurası çərçivəsində əlaqələr möhkəmləndirilmişdir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) zamanı Azərbaycanın təşəbbüsü ilə BMT-nin Xüsusi Proqramı (SPECA) üzrə Etimad Fondunun fəaliyyətə başlaması elan edilmiş, BMT-nin Sənaye İnkişafı Təşkilatının (UNIDO) Regional Dayanıqlı Enerji Mərkəzlərinin Qlobal Şəbəkəsinə (GN-SEC) daxil olan və Azərbaycanın evsahibliyi edəcəyi "ECO regionunun Təmiz Enerji Mərkəzi"nin işə salınması üzrə təqdimat tədbiri həyata keçirilmişdir. Regional səviyyədə "Trans-Xəzər Nəqliyyat Dəhlizi" və "Həmrəylik Halqası" layihələri çərçivəsində enerji və nəqliyyat sahələrində əməkdaşlıq genişlənmişdir. 2024-cü il noyabrın 13-də isə Bakıda Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentləri arasında "Yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanmışdır.

Ölkəmizin iqtisadi hədəfi iqtisadiyyatı daim şaxələndirmək və dayanıqlı inkişaf modelini təkmilləşdirməkdir. Həm də bu səbəbdən artıq Azərbaycanın iqtisadi inkişaf modeli dünyada özünü təsdiqləyib. İndi hamı etiraf edir ki, Azərbaycan öz resurslarına arxalanaraq güclü və müstəqil iqtisadiyyat qurub, heç kimdən asılı deyil.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 28 fevral (№ 45).- S.7.